

# Mədəniyyət Nazirliyi sistemində büdcə vəsaitlərini talan ediblər

*Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq Sumqayıt Regional İdarəsi (İdarə) üzrə 2017-2018-ci illərdə büdcə vəsaitlərinin icrasının vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə Hesabatı müzakirə edərək təsdiqləyib. Palatadan bildiriblər ki, audit 2017-2018-ci illər üzrə 20 254,4 min manat vəsaiti əhatə edib.*

Səh.2


# UNİKAL

№35 (1974) 20 iyul 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Abdullayevlərin "bahalı saat" sabotajı



Səh.9

# "Keşikçidağ" olayı daha böyük təxribatların başlanğıcı ola bilər

## Vətəndaşların məmurlara qarşı qəzəbini körükləmək nəyə lazımdır?

*"Vəzifəli şəxslərin uşaqları qudurğanlıq edirlər, insanları təhqir edirlər, özlərini apara bilmirlər". Ölkə başçısı bu sözləri hələ 6 il öncə, "Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda demişdi. Bu həmin vaxtlar idi ki, mətbuatda müxtəlif məmur balalarının əndazəni aşan hərəkətləri ilə bağlı az qala hər gün yeni xəbər yayılır, bu isə vətəndaşlarda haqlı olaraq ciddi narazılıq oyadırdı. Elə bunu nəzərə alan dövlət rəhbəri də istər həmin, istərsə ondan sonrakı bir neçə çıxışında məmurların və övladlarının xoşagəlməz hərəkətləri ilə bağlı sərt fikirlər səsləndirmiş, kəskin xəbərdarlıqlar etmişdi.*

Səh.8

## "Bəzi müxalifət liderləri siyasəti məişət səviyyəsinə endiriblər"



*Müxalifət düşərgəsində daxili çəkişmələr davam edir. Bir müddət əvvəl yaranan Qarabağ Komitəsi, Azərbaycan Xalq Hərəkatı daxilində yaranan narazılıqlar pik həddindədir. Hətta bəzi müxalifət nümayəndələri həmin birlikləri tərk ediblər. Maraqlıdır, müxalifət düşərgəsində niyə monolitlik əldə olunmur? Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən ADP sədri Sərdar Cəlaloğlu bəzi mətləblərə aydınlıq gətirib.*

Səh.4

## Sahil Babayevin tənqidləri havada qalıb



*Əmək və əhalinin sosial müdafiəsi naziri postuna Sahil Babayev gətirildikdən sonra bu qurumun fəaliyyətində ciddi dönüş yaranacağına dair gözləntilər özünü doğrultmur. Elə bu səbəbdən də Babayev haqqında istər KİV-də, istərsə də sosial şəbəkələrdə mütəmadi tənqidi fikirlər yer alır; hətta zaman-zaman millət vəkilləri də nazirlə bağlı iradlarını dilə gətirirlər.*

Səh.7

## Oliqarx məmurlara qarşı cəzalar sərtləşdirilir



*Son günlər insanların yay fəslində istirahət etdiyi məkanların, dəniz kənarlarının, göllərin sahibkarlar tərəfindən hasarlanması ictimaiyyətdə geniş müzakirə mövzusuna çevrilib. Dənizin sahilinin, regionlarda yerləşən göllərin hasarlanaraq ödənişli istirahət mərkəzlərinə çevrilməsi əhalini sözügedən məkanlarda dincəlmək hüququndan sözün əsl mənasında məhrum edib.*

Səh.10